# “Bəzən hər şeyə zamanında qiymət verilmir”

## Elçin Musaoğlu: “O qırmızı xalça üzərindən elə ən çox amerikalıların özləri keçirlər”






**Elçin Musaoğlunun “Nabat” bədii filmi Banqladeşdə keçirilən 14-cü Dəkkə Beynəlxalq Film Festivalında mükafata layiq görülüb. Festival 14-22 yanvar tarixlərində Dəkkə şəhərində keçirilib. Yerli filmimiz isə sözügedən müsabiqənin proqramında yer alıb. “Nabat”-ın yaradıcı heyətinin üzvləri filmin nümayişində və təltifetmə mərasimində iştirak edib.**



Məlumatınız olsun ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında 2014-cü ildə lentə alınan filmin ssenari müəllifləri Elxan Nəbiyev və Elçin Musaoğlu, quruluşçu operatoru Əbdülrəhim Bəşərat, quruluşçu rəssamı Şahin Həsənli, bəstəkarı Hamed Sabet, icraçı prodüseri Arif Səfərov, prodüseri Müşfiq Hətəmovdur. Ekran əsərində baş rolları Fatimə Motamed Arya, Vidadi Əliyev, Sabir Məmmədov, Fərhad İsrafilov və başqaları ifa ediblər.

“Nabat” filmi Qarabağ müharibəsindən bəhs edir. Ekran əsərinin baş qəhrəmanı Nabat xala Qarabağın müharibə zolağında olan dağ kəndlərindən birində yaşayır. Kəndin olan-qalan sakinləri növbəti güclü atəş yağışından sonra tamamilə evlərini tərk edirlər. Nabat xala isə xəstə həyat yoldaşını və oğlunun məzarını qoyub heç yana getmir. Hər axşam bu qəhrəman qadın kəndin məscidində və bütün evlərdə neft lampaları yandırır. Hər gecə yanan lampaların işığını görən ermənilər uzun müddət kəndə girməyə qorxurlar. Film Azərbaycan qadınının şücaətini, dözümlülüyünü, qəhrəmanlığını bir daha təsdiq edir.

Filmin əldə etdiyi uğurları nəzərə alaraq, biz də onun rejissoru Elçin Musaoğlu ilə əlaqə saxladıq. Rejissor bizimlə söhbətində “Nabat” filminin uğurlarından ağızdolusu danışdı. Bununla bərabər, müsahibimiz hazırda kino aləmində baş verən tendensiyaları da göz önünə gətirdi.

**- Elçin müəllim, “Nabat” filminin əldə etdiyi uğurlardan xəbərdarıq. Banqladeşdə keçirilən festival barədə istərdik oxucularımızı məlumatlandırasınız. Necə oldu ki, sözügedən festivalda iştirak etdiniz?**

- Diqqətiniz üçün təşəkkürlər. Rejissoru olduğum “Nabat” filminin öz distribütoru var. Filmin distribütoru fransız vətəndaşıdır. Filmin reklamı, festivallara göndərilməsi, satışı ilə birbaşa olaraq həmin şəxs məşğul olur. Yəni bu işlər birbaşa olaraq onun işidir. O, “Azərbaycanfilm” kinostudiyasına hər ay filmi göndərdiyi festivallar, dünyanın müxtəlif ölkələrinin kinoteatrları ilə bağlı hesabat verir. Deməyim odur ki, biz bu işlərlə məşğul olmuruq.

**- “Nabat” filminin uğurları çox olub, bu da o uğurlardan biridir.**

- Bəli. “Nabat” filminin dünya premyerası 2014-cü ildə keçirilən 71-ci Venesiya festivalında oldu. Azərbaycan filmi ilk dəfə idi ki, Venesiya festivalında iştirak edirdi. Bunun ardınca Çikaqo film festivalında iştirak etdik. Yaponiyada məşhur Tokio festivalında da iştirakımız oldu. Almaniyada, Türkiyədə, demək olar ki, bütün qitələrdə keçirilən festivallarda “Nabat” filmi iştirak etdi və yüksək mükafatlara da layiq görüldü. Nəinki dünyanın müxtəlif ölkələrində, eyni zamanda, ölkəmizdə keçirilən festivallarda da ən baxılan və sevilən filmlər sırasında yer aldı. Misal üçün, filmimiz Mədəniyyət və Turizm Nazirliyinin “Zirvə” mükafatına layiq görüldü. Dekabrda rejissorlar, prodüserlər və aktyorlar gildiyasının birgə təsis etdiyi “Qızıl Pəri” nominasiyasında ən yaxşı film mükafatı adına layiq görüldü.

**- Bir ara eşitdik ki, “Nabat” filmi dünyaca məşhur olan “Oskar” mükafatına namizəd olan filmlər sırasındadır.**

- Elədir. Filmimiz Azərbaycandan sözügedən müsabiqəyə təqdim olunmuşdu. Bildiyiniz kimi, “Oskar” mükafatında yalnız dünyanın ən tanınmış və məşhur filmləri yer alır. O müsabiqəyə Azərbaycandan da bizim film təqdim olunmuşdu.

**- Bəs onun sonrakı taleyi necə oldu?**

- Sonrakı taleyi hər bir insanda olduğu kimi.

**- Necə?**

- O, böyüyür, inkişaf etməyə başlayır, öz taleyini yaşayır. Əsas odur ki, ona can verilsin. Can verildikdən sonra iməkləməyə və yeriməyə başlayır. Beləliklə, filmimiz dünyanın tanınmış festivallarında və simpoziumlarında iştirak etməyə başlayır. “Nabat” filmi təkcə festivallarda iştirakla kifayətlənmir, dünyanın müxtəlif kinoteatrlarına satılır və hazırda da filmimiz həmin kinoteatrlarda nümayiş olunmaqdadır. Yəni proses hələ də davam edir.

**- Elçin müəllim, bəs görəsən filmlərimiz nə zaman “Oskar” mükafatına layiq görüləcək? Bizim kino cameəsinin nümayəndələrinin nə zamansa o qırmızı xalı üzərindən keçdiyini görə biləcəyikmi?**

- Sizin dediyiniz o qırmızı xalçadan biz Venesiyada, Tokioda “A” kateqoriyalı müsabiqələrdə keçmişik. Əgər “Oskar”ı nəzərdə tutursunuzsa, orada xarici filmə cəmi 1 mükafat verilir. O da Amerika filminin payına düşür. Həmin müsabiqədə qalib olanlar yalnız yaxşı filmlər deyil, burada siyasət də öz rolunu oynayır. “Oskar” mükafatı qazanmaq üçün bəzi amillər var ki, onlar bu məsələdə əsas rol oynayır. Bu, bir günün işi deyil. Bu, ölkənin kinoya olan münasibətindən irəli gəlməlidir. Film sahəsi elə inkişaf etməlidir ki, okeanın o biri tayında da həmin filmi eşitsinlər, mövzu onlara yaxın olsun. Burada şərtlər çoxdur. Filmi çəkdik, aparaq verək “Oskar” müsabiqəsinə və bununla da iş bitsin deməklə olmur. Ümumiyyətlə isə, o qırmızı xalçanın üzərindən elə ən çox amerikalıların özləri keçirlər.



**- Xaricdə filmlər çəkiləndə, filmin büdcəsinin ən azı yarısı qədər onun reklamına maliyyə ayrılır. Çünki reklamın özü də filmə maliyyə gətirir. Bəs bizdə necə?**

- Bəzən reklama ayrılan pul filmin özünə ayrılan puldan da çox olur. Bəzən reklam büdcənin 70 faizini təşkil edir. Amerika kinosunda bu sistemlə işləyirlər. İnsanların gedib filmə baxması üçün reklamın əvəzsiz rolu var. Bizdə hələ o imkanlar yoxdur. Filmin büdcəsinin heç 10 faizi qədər onun reklamına pul ayrılmır. Heç film çəkiləndə onun reklamı üçün maliyyənin ayrılması da nəzərdə tutulmur. Bu, böyük bir prosesdir.

**- Deyirlər ki, Azərbaycan kinosu inkişaf etmir və köhnə kinoların yerini heç nə vermir. Bu fikirlərlə razısınızmı?**

- Əvvəllər də deyirlərmiş ki, bizdə film yoxdur. Ancaq bizim nəsil bizdən əvvəl çəkilən filmlərə baxır, onu tərifləyir. Yəqin bizdən sonra da bizim filmlərimizə baxılacaq və bəyəniləcək. Bəzən hər şeyə zamanında qiymət verilmir. Hər şeyin yerinə düşməsi üçün zamana ehtiyacımız var. Əslində çoxlu film çəkilməlidir ki, insanlar keyfiyyətli filmlə keyfiyyətsizini ayıra bilsinlər. Əslində kinonun hər zaman dövlətin dəstəyinə ehtiyacı var. Dünyanın inkişaf etmiş ölkələrində də bu proses belədir. Film elə bir şeydir ki, o, qazanc gətirməyə də bilər. Ancaq bu, birbaşa olaraq xalqın mədəniyyətinin göstəricisidir. Dövlətin də marağındadır ki, onun ölkəsində film çəkilsin. Dövlət bu işdə maraqlı olduğu üçün bu sahəyə maliyyə ayırır. Bizim gücümüz ildə yalnız 2-3 filmə çatır. Devalvasiyadan sonra bunun necə olacağını artıq bilmirəm. Çox arzulayardım ki, bu devalvasiya mədəniyyətə öz təsirini göstərməsin.

**- Hazırda komediya filmləri kinoteatrlarda daha çox görünür. Bu, artıq kommersiya xarakteri alıb. Sizə elə gəlmirmi ki, komediya dram janrını yavaş-yavaş sıradan çıxarır?**

- Bu, janr filmləridir. Komediya filmləri demək olar ki, bütün dünyada çəkilir. Əgər Azərbaycanda komediya filmi çox çəkilirsə, bu o demək deyil ki, dram filmlərimiz azlıq təşkil edir. Əslinə baxanda, dünyada da dram filmləri daha çox çəkilir. Komediya janrında film çəkənlərin çoxu müstəqil insanlardır. Misal üçün, Türkiyədə “Recep İvedik” filmi çəkilir. Mən bunlara yüngül janrlı filmlər deyirəm. Ani gülüş və çox qazanc əldə etmək istəyi kimi bir şeydir. Hər kəsin öz işi var. Elə şeylər var ki, onu axıra kimi demək olmur. Onlar pul qazanmaq istəyir. Xalasından-bibisindən pul tapıb gətirir, yüngül janrlı mövzu qoyaraq komedik aktyor və yaxud da qeyri-aktyorları taplayıb film çəkirlər. Bu, normal bir şeydir. Bütün cəmiyyətlərdə olur. Türkiyənin özündə Nuri Bilge Ceylan kimi rejissor var. Onun kimi istedadlı bir rejissorun filmi “Recep İvedik”-in filmləri qədər satılmır. Belə görürəm ki, qısa müddətdən sonra nə aktyora, nə də rejissora ehtiyac olacaq. Çünki hər yerdə 3D mövcuddur. Kodeksləri götürüb film hazırlayırlar. Maraqlısı da orasındadır ki, həddən ziyadə tamaşaçı toplaya bilirlər. Onların adını dəyişmək lazımdır. Bu filmlər başqa cür adlandırılmalıdır ki, onlara kino deyilməsin. Axı bunlar kino deyil.

**P.S:** *Qeyd edək ki, Elçin Musaoğlu “Sinema Evi” Prodüser Mərkəzinin təsisçisidir. Azərbaycan Kinematoqrafçılar İttifaqının və Türkiyə Sənədli Filmçilər Birliyinin üzvüdür. İdman və Gənclər Nazirliyinin “İlin ən yaxşı kinorejissoru” (1999), Əl-Cəzirə Film Festivalının “Qızıl Mükafat”ının sahibidir (2006). “40-cı qapı” film layihəsi Focal cəmiyyətinin (İsveçrə) təyin etdiyi qrantın qalibi olub (2005). 50-dən çox sənədli və bədii filmlərin müəllifi və rejissorudur.*

**Xəyalə Rəis**